**1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü**

# Azərbaycan uşaqları hər cür qayğı və məhəbbətlə əhatə olunub

***❒ Böyüklərin həmişə saf məhəbbətlə sevdiyi uşaqlar dünyanın ən pak və pak olduqları qədər də müqəddəs varlığıdır. Elə buna görədir ki, ulularımız onlara böyük qayğı bəsləyib və bəşəriyyətə də bu məsumluğu qoruyub saxlamağı, sevməyi öyrədiblər. Peyğəmbərimiz Məhəmməd əleyhissəlam evdə hamıdan böyük, hamıdan səlahiyyətli qismində məhz uşaqları görərdi. İmam Əli (ə) deyərdi ki, başqasının uşağını xoşbəxt görmək istəyən öz balası üçün xoşbəxtliyi təmin etmiş olur.***





Analarımız laylalarında, oxşamalarında körpələrini dünyanın ən müqəddəs varlığı kimi əzizləyir, onları ən isti sözlərlə mədh edirlər:

**Laylay, beşiyim, laylay,**
**Evim-eşiyim, laylay.**
**Sən yat şirin yuxuda,**
**Çəkim keşiyin, laylay!..**

Bu gün dünyamız ziddiyyətlərlə, münaqişələrlə, ictimai-siyasi kataklizmlərlə doludur. Dünyanın münaqişəli zonalarında böyüklərlə bərabər uşaqların da həlak olması barədə, demək olar ki, hər gün xəbərlər alırıq. İraqın, Misirin, Liviyanın küçələrində yüzlərlə uşağın günahsız qanı axıdılır. Son 6-7 ildə Suriyada baş alıb gedən vətəndaş müharibəsi on minlərlə





məsum körpənin həyatına son qoyub. Əlbəttə, uşaqlara qarşı bu cür qəddarlıqlar bütün dünya xalqları tərəfindən qətiyyətlə pislənilməli, milliyyətindən, dinindən, irqindən asılı olmayaraq bütün insanlar belə bədnam əməllərə son qoyulmasını tələb etməlidirlər. Ən azı, bəşəriyyətin gələcəyi naminə.

Təəssüf ki, keçən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan körpələrinə silah qaldıran quldur ermənilər hələ də cəzasız gəzirlər, bəşəriyyət tarixində ən qəddar qətliamlardan biri olan Xocalı soyqırımını törədənlər beynəlxalq qanunların cəzasından kənarda qalmaqdadırlar. Hələ də onların tutulub ədalət mühakiməsinə verilməsi “demokratik” dünyanın yadına düşmür. Babalardan ərməğan olan torpaqlarımız parça-parça edilərək yadelli işğalçıların əlinə verilib. Azərbaycanın



sərhədləri daralıb, Dərbəndi, Təbrizi, Borçalını, İrəvanı, Göyçəni, Zəngəzuru, Ağbabanı, nəhayət, keçən əsrin axırlarında Qarabağı itirmişik. Hazırkı Ermənistan ərazisindən 200 mindən çox, Azərbaycanın daxilindən isə bir milyona qədər insanımız ev-eşiyini, isti ocağını itirərək didərgin salınıb. Böyüklərlə bərabər körpələrimiz də qaçqın-köçkün həyatı yaşamağa məhkum edilib.

Uşaq hüquqları ilə bağlı Qərbdə bir sıra hüquqi sənədlər qəbul edilib. İlk belə sənəd olan “Uşaq hüquqları haqqında Konvensiya” Beynəlxalq Qadınlar Federasiyasının təşəbbüsü ilə hələ 1949-cu ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş olsa da, bu gün dünyanın bir çox yerlərində uşaq hüquqlarının pozulması hallarına rast gəlirik. Belə hallar son 29 ildə Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycanda da baş vermişdir.



Tarixi Azərbaycan torpaqlarının işğalı zamanı bütün yerli əhaliyə, eləcə də uşaqlara heç bir aman verilməyib. Qarabağ müharibəsi illərində 1000-dən çox uşaq şəhid olub, nə qədər günahsız körpə Xocalıda, işğal edilən digər şəhər və kəndlərimizdə erməni quldur ordusu tərəfindən əsir götürülüb, işgəncələrə məruz qalıb. Əsl soyqırımı nümunələri olan bu faktlar, təəssüf ki, Avropanın çoxsaylı insan haqları təşkilatları, eləcə də dövlətləri tərəfindən qulaqardına vurulur, cəzalandırılmalı olan başəri cinayət əməlləri mükafatlandırılır.

Bu gün - iyunun 1-də bütün dünyada Uşaqların Beynəlxalq Müdafiəsi Günü qeyd edilsə də, Azərbaycan uşaqlarının bir qismi – Dağlıq Qarabağ və ətraf rayonlardan köçkün düşmüş uşaqlar özlərinin bu bayramını doğma yurdlarından uzaqda, yeni məskunlaşdıqları ərazilərdə qeyd etməli olurlar. Hazırda dünyanın 189 ölkəsindən biri kimi “Uşaq hüquqları haqqında Konvensiya”ya, eləcə də uşaqların taleyi ilə bağlı digər beynəlxalq sənədlərə qoşulmuş Azərbaycan öz ərazisində yaşayan bütün uşaqların hüquqlarının qorunması, onların öz bayramlarını





sevinc və fərəh içində keçirməsi üçün hər cür şərait yaradır. Bu bayramı ölkəmizdə millətindən, dinindən, dilindən, irqindən asılı olmayaraq, bütün körpələr eyni şəraitdə qeyd edirlər. Neçə illər çadır şəhərciklərində yaşamış uşaqlar artıq dövlətimizin qayğısı sayəsində ailələri ilə birlikdə köçkün vətəndaşlar üçün salınmış yeni qəsəbələrdə yaşayır, normal təhsil alır, lazımı tibbi xidmət görür, digər hüquqlardan bəhrələnirlər.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə



uşaqlara xüsusi qayğı və diqqətlə yanaşmışdır. Onu mütəmadi olaraq uşaqların iştirakı ilə keçirilən ayrı-ayrı bayram və tədbirlərdə görmək olardı. Bu tədbirlərdə o, mütləq uşaqlarla söhbət edər, söylədikləri şeir nümunələrini maraqla dinləyər, körpələri həvəsləndirərdi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin yaradılması da ulu öndərin məhz uşaqlara olan qayğısından, diqqətindən irəli gəlirdi.

Son illərdə Azərbaycan Prezidenti İlham Əliyev uşaqlarımızın inkişafı, müasir bilik və vərdişlərə yiyələnmələri üçün hər cür şərait yaradır. Onlar üçün gözəl uşaq bağçaları, məktəblər tikilib istifadəyə verilir. Prezidentin istedadlı uşaqların seçilərək dövlət qayğısı ilə əhatə olunması barədə sərəncamları da bura əlavə olunmalıdır.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan uşaqlarına qayğısı isə ayrıca bir söhbətin mövzusudur. Onu daim ölkənin ayrı-ayrı yerlərində, şəhərlərimizdə, kəndlərimizdə uşaqların yanında görürük. Fondun dəstəyi ilə uşaqlar və gənclər arasında musiqi müsabiqələrinin keçirilməsi onların istedadlarının üzə çıxarılmasında mühüm addımdır.

Biz də bu gözəl gün - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə bütün uşaqlarımızı təbrik edir, onlara daha xoşbəxt həyat arzulayırıq. Çünki onlar hər cür xoşbəxtliyə layiqdirlər.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***